**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 44/06**

**Bakı şəhəri** **23 noyabr 2024-cü il**

**"İşçilərin peşə və vəzifələri, əmək haqqı və işlədikləri vaxta dair" seçmə statistik müayinənin sorğu anketi və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 15 may tarixli 27/6 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "İşçilərin peşə və vəzifələri, əmək haqqı və işlədikləri vaxta dair" seçmə statistik müayinənin sorğu anketi və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 15 may tarixli 27/6 nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Əmək statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədrin səlahiyyətlərini müvəqqəti icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**